ədəbiyyat QƏZETİ



# Eyvaz Borçalı

## Kaş...

Kaş ömrü geriyə qayıtmaq ola,
Yaşına bürünüb çıxasan yola;
Üzünə güldükcə itirdiklərin
Ürəyin çırpına, gözlərin dola.

Ardınca yüyürüb töyşüyə qəhər,
Gedəsən o evə-eşiyə qədər.
Gedəsən, illəri atıb arxaya,
Qundaqda yatdığın beşiyə qədər.

Bir ana görəsən - gözün sevinə,
Bir layla səslənə - üzün sevinə.
Büdrəyə-büdrəyə düşüb beşikdən,
Təzə dil açasan - sözün sevinə.

Durub üz tutasan üzü bəriyə,
İllər əridikcə bəxtin yeriyə;
Heç nə dəyişməyə, qala necə var
Dönüb baxmayasan bir də geriyə.

Bir də vurulasan vurulduğuna,
Bir də qovrulasan qovrulduğuna;
İrəli şütüyüb gedəsən elə,
Məhəl qoymayasan yorulduğuna.

Bir də yaşayasan yaşadığını,
Bir də daşıyasan daşıdığını.
Nəbzini tutasan dövrün, zamanın
Duyasan Zamanla yaşıdlığını.

Elə ki, gözündə bərkidi dünya,
Görəsən nə gözəl sərgidi dünya;
Ömrün zirvəsində nəfəs təngisə,
Qımışıb deyəsən: ey gidi dünya!..

## Bəsdi

Ürəyim əlimdə, əlim varaqda,
Özümü sökürəm səssiz otaqda;
Qudurur qudursun çölümdə şaxta,
İçimdə odlara qalanım, bəsdi!

Qəhətə çəkilib qazancım, varım,
Bəxtim qıfıllanıb, itib açarım!
Dözüb yaşamağı gərək bacarım,
Bu həyat eşqimlə dolanım, bəsdi!

Əzəldən vərdişəm tox görünməyə,
Bir dünya dərdimlə şux görünməyə:
Namərdim gözümə ox görünməyə
Canıma cəfayla talanım, bəsdi.

Yalandan nə sevgim, nə sözüm ola,
Məndən törəyən də mən özüm ola!
Bir əyri düzəldən min düzüm ola,
Cəzaya tək bircə yalanım bəsdi.

Ümid bəsləmirəm çıxmayan cana,
Sonsuz ha verilmir ömür insana!
Mən də gedəsiyəm bir gün o yana,
Ələnib bu yanda qalanım, bəsdi!

## Nikbinlik

Hamıdan gizləyib, salıb içəri,
Kim desə dərdsizəm, bil ki, yalandı.
Məncə, bu dünyanın ən bəxtəvəri
Dərdini ovudub xoşbəxt olandı.

Nazıyla oynayıb hər axşam-səhər,
Başını qatıram mən öz dərdimin.
Xətrinə dəymirəm, deyirəm küsər,
Səmtinə yatıram mən öz dərdimin.

Deyirəm, küsməsin qoy bu dəcəlim,
Başını qatıram baş aparmasın.
Sümsünə-sümsünə güdən əcəlin
Qəsdi ayaq tutub başa varmasın.

Deyirəm, ovunub qoy olsun həlim,
Qəlbə məlhəm olsun qəlbi qanadan.
Dərdim ovunduqca mən də dincəlim
Ruhum darıxmasın insanxanada.

Başını qatıram, çox qabarmasın,
Quzu düzəldirəm coşan dəryadan.
Qoy məni aldadıb dərd aparmasın,
Mən özüm aparım onu dünyadan.

## Gedirəm

Payız kimi xəzəllənib əhvalım,
Payız kimi yağışlayıb, gedirəm;
Boylandığım pəncərəymiş bu dünya,
Aynasını naxışlayıb, gedirəm.

Qoy sevinsin naxışımı görənlər,
Yaxşılığı ilmə-ilmə hörənlər;
Yaman gündə yaxşı salam verənlər,
Hamınızı alqışlayıb, gedirəm.

Bir-birinə bənzəməyib zamanlar,
Yol bağlayıb, yol kəsibdi dumanlar;
Yamanlığı yaxşı bilən yamanlar,
Mən sizə bağışlayıb, gedirəm.

Dəmyələrdə göl quşları görmüşəm,
Həyətlərdə çöl quşları görmüşəm;
Can ağrıdan çox qışları görmüşəm,
Bu qışı da sağ qışlayıb, gedirəm..

## Təskinlik

Ey özü özüylə həsb-hal edən,
Yersizdir hər şeyi ürəyə salmaq.
Alın yazısıdır bəlkə taledən
Görünə-görünə görünməz olmaq.

Ötəri yuxudur bəxtin yatmağı,
Haqqına çatacaq haqsız yamanlıq.
Ağlına gətirmə itib-batmağı,
İnsan iynə deyil, dövran samanlıq.

Kiməsə dərd olub çıxmır yadından
Kiminsə ardınca sürünməzliyin.
Ucadır göylərin yeddi qatından
Görünə-görünə görünməzliyin.

Özünü yun kimi didib nahaqdan,
Tanrı dərgahında batma günaha.
Özündə axtarma, bəllidir çoxdan
Hər şeyin səbəbi göydə Allaha.

Heç dinclik bilmirsən, dözüm
bilmirsən,
Qəlbə işgəncədir qınaq olmağın.
Bəlkə səadətdir - özün bilmirsən -
Hələ bu dünyada qonaq olmağın.